AZƏRBAYCAN RESPUBLİKASININ
KOSMİK AGENTLİYİ

azercosmos

**Tanıtım mallarının satın alınmasına dair açıq tender elan edir.**

Satınalmada iştirak etmək istəyən təchizatçılar Agentliyin rəsmi internet səhifəsində **https://www.azercosmos.az** xəbərlər bölməsinə daxil olaraq müvafiq elektron poçt ünvanına **(tender@azercosmos.az)** və ya yazılı şəkildə iştirak etmək niyyəti barədə müraciət ünvanlaya bilərlər.

Satınalmada iştirak etmək istəyən təchizatçılar şərtlər toplusunu əldə etmək üçün iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət sorğusunu **tender@azercosmos.az** elektron poçt ünvanına göndərməlidirlər.

- İştirak haqqı – **250 AZN**
- Ehtimal olunan qiymət: **175 539,16 AZN (bir yüz yetmiş beş min beş yüz otuz doqquz manat, 16 qəpik)**

Benefisiarın adı: **AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS)**
Benefisiarın hesabı: **AZ63AIIB33060039441802747118**
Benefisiarın VÖEN-i: **1302369281**
Valyuta: **AZN**
Benefisiarın bankı: **Kapitalbank ASC Gənclik filialı**
Filialın kodu: **200189**
VÖEN: **9900003611**
SWIFT kod: **AIIBAZ2XXXX**
Müxbir hesab: **AZ37NABZ01350100000000001944**

Təchizatçılar Şərtlər Toplusunun uyğunluq göstəricilərinin qiymətləndirilməsi bölməsində göstərilən ixtisas göstəricilərinə dair aşağıda qeyd olunmuş sənədləri, həmçinin qiymət təklifini imzalanmış və möhürlənmiş qapalı zərfdə **7 oktyabr 2025-ci il saat 16:00-a qədər** Azərkosmosun **Satınalma Komissiyasına (Bakı şəhəri,Ü.Hacıbəyli küç 72, Azərpoçt 5-ci mərtəbə)** təqdim etməlidirlər. Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan **geri qaytarılacaqdır.**

Təklif zərflərinin açılışı **7 oktyabr 2025-ci il saat 17:00-da Ü.Hacıbəyli küç 72, Azərpoçt 5-ci, Azersky otağı** ünvanında keçiriləcəkdir.

*Zərflərin açılışında iştirak etmək istəyən Təchizatçıların səlahiyyətli nümayəndələri barədə öncədən təmsil edəcəyi müəssisə tərəfindən əlaqələndirici şəxsin elektron ünvanına məlumat göndərilməlidir. (şəxsiyyət vəsiqəsinin "scan"-ı). İştirakı nəzərdə tutulan şəxsin şəxsiyyət vəsiqəsi və etibarnaməsi üzərində olmalıdır.*
Təchizatçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

İştirak etmək üçün təchizatçıların ixtisas göstəricilərinə dair aşağıdakı ümumi tələblər müəyyən edilir:

1. **Satınalmada iştirak haqqında müraciət (forma əlavə olunur)**;
2. **Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması və son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının tətbiq edilməməsi** - Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək (2025-ci ilin 3-cü rübü üzrə);
3. **Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi** - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək (2025-ci ilin 3-cü rübü üzrə);
4. **Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi** - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək (2025-ci ilin 3-cü rübü üzrə);
5. **Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması** - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək (2025-ci ilin 3-cü rübü üzrə);
6. **Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması - Təchizatçı haqqında:**
   a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;
   b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;
   c. birgə fəaliyyət göstərdikdə Şərtlər toplusuna uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.
   Təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış
   a. Hüquqi və fiziki şəxs olduqda və (və ya)
   b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq
   c. Şərtlər toplusuna uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.
   d. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış

7. **Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması** - Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış (Forma 1) əsasında qiymətləndiriləcək;
8. **Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə inzibati cərimənin tətbiq edilməməsi** - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək (2025-ci ilin 3-cü rübü üzrə);

**Xüsusi tələblər:**

**Peşəkarlıq və təcrübə:** Keçirilən satınalmadan əvvəlki son 3 il ərzində ÜMUMİLİKDƏ ən azı **210 646,00** AZN məbləğində icra edilmiş və ya icrasının 80 faizdən çoxu tamamlanmış cari satınalma predmetinə oxşar ən çoxu **2** müqavilə təqdim edilsin.

**Maliyyə imkanı:** Ən az 49 150,00 AZN maddi vəsaitə çıxışı olsun

Əməliyyat üzrə pul daxilolmaları ən az 140 000,00 AZN olsun

Yığılmış zərərin həcmi ən çoxu 68 460,00 AZN olsun

Mütləq likvidlik əmsalı ən azı 0,2 olsun

**Əlaqələndirici şəxs:**
Satınalmalar üzrə aparıcı mütəxəssis: Nilufər Quluzadə
Əlaqə nömrəsi: +994 12 310 00 55 (dax.172)
Elektron ünvan: tender@azercosmos.az

## Qiymət cədvəli

**Qeyd: Marka adı qeyd olunmuş məhsul olduqda ekvivalenti qəbul olunur.**

| *Maddə №* | *Malların və əlaqədar xidmətlərin (varsa) təsviri* | | *Mənşə ölkəsi* | *Çatdırılma /icra tarixi* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidinin qiyməti* | *Cəm* | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | | 3 | 4 | 5 | 6 | 7 | 8 | |
| 1 | Sadə qələm növ 1 (EKO) | Praktik qələm buğda samanı və ABS-dən hazırlanmışdır. Düyməli mexanizm, mavi mürəkkəb və yuxarı hissəsində Buğda Samanı loqosu ilə. Rəng - Ağ, qara ya tünd-mavi.<br><br>Buğda Samanı / ABS<br>(və ya ekvivalenti) | | | ədəd | 700 | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | **Sadə qələm növ 2 (EKO)** | Pointer qələm, itələmə mexanizmi və cəsarətli dizayna malikdir. Parlaq səthə malik alüminium gövdə, xüsusilə lazer çapı üçün nəzərdə tutulmuşdur və loqonu gümüşü çalarda göstərir. Xrom aksesuarları və metal klipsi var. Jumbo kartric və mavi mürəkkəb doldurma ilə. Jumbo Doldurma Alüminium. Qələm rəngi - Ağ, qara ya tünd-mavi (və ya ekvivalenti) | | | **ədəd** | **700** | | |  |
| 3 | **VİP qələm (EKO)** | Təkrar emal olunmuş paslanmayan poladdan hazırlanmış qələm dəsti – bir ədəd diyircəkli qələm və bir ədəd gel qələm. Uyğunlaşdırılmış mantar qutuda təqdim olunur. | | | **ədəd** | **300** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Müvafiq olaraq mavi və qara mürəkkəb. Mantar 100% təbii materialdır. Üzərində iki rəngli loqo lazer çapı (və ya ekvivalenti) | | | | | | | |
| 4 | **VİP qələm (EKO)** | Düyməli diyircəkli qələm, təkrar emal olunmuş paslanmayan polad gövdə ilə. Uyğunlaşdırılmış mantar qutuda təqdim olunur. Mavi mürəkkəb. Mantar 100% təbii materialdır. Struktur xüsusiyyətləri və səth məsaməliliyi səbəbindən çap nəticələrində hər məhsul üçün fərqlər ola bilər. (və ya ekvivalenti) | | | **ədəd** | **300** | | | |
| 5 | **USB Yaddaş kartı** | 16GB USB flash yaddaş kartı, metal mat səth və açarlıq üçün minimalist dizayn. Fərdi kağız qutuda təqdim olunur. Material - | | | **ədəd** | **600** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Metal Üzərində işıqlı loqotip çapı (və ya ekvivalenti) | | | | | | | |
| 6 | **Termos növ 1** | İkiqat divarlı, toz boya örtüklü paslanmayan poladdan hazırlanmış termos. Rahat daşımaq üçün silikon tutacaq. Sızdırmaz. Tutumu: 600 ml. (və ya ekvivalenti) | | | **ədəd** | **100** | | |  |
| 7 | **Termos növ 2 (EKO)** | İkiqat divarlı, təkrar emal olunmuş paslanmayan poladdan hazırlanmış tumbler (90% təkrar emal olunmuş polad, 10% paslanmayan polad). Pipet qapağı və PE pipeti daxildir. Tutumu: 1200 ml. (və ya ekvivalenti) | | | **ədəd** | **100** | | |  |
| 8 | **Sarj set kabel (EKO)** | 3-ü 1-də şarj kabeli, müxtəlif konnektorlarla. Akasiya | | | **ədəd** | **250** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | ağacından hazırlanmış qutuda təqdim olunur. Type-C to Type-C, C to USB-A, C to micro-B konnektorları daxildir. (və ya ekvivalenti) | | | | | | | |
| 9 | **Döş nişanı (5 fərqli növdə)** | Xüsusi dizayn<br>Material: metal (xrom)<br>Rəng: bir rəng<br>Ölçü: 15 mm<br>Hər döş nişanı öz ölçüsünə görə bir 200qr kağızda təqdim edilməlidir. Kağızın üzərində - rəngli loqo çap (və ya ekvivalenti) | | | **ədəd** | **600** | | |  |
| 10 | **Bloknot A5** | Xüsusi dizayn<br>Ölçü: A5 (200 səhifə)<br>Rənglər: qara, ya ağ, ya göy panton PMS 285 C<br>Rəngə uyğun üzəri yumşaq dəri, elastik rezin, içərisində ip<br>Arxa səhifəsində cib<br>Açılanda 180 | | | **ədəd** | **700** | | |   |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | dərəcə hamar olmalıdır<br>Dairəvi künclər<br>Üz qabığında relyefli basma loqo/yazı, daxili səhifələri xüsusi dizaynlı<br>Kağız: fil sümüyü rəngli mat, düz xətt (və ya ekvivalenti) | | | | | | | |
| 11 | **Bloknot kiçik** | Xüsusi dizayn<br>Ölçü: A6 (100 səhifə)<br>Rənglər: qara, ya ağ, ya göy panton PMS 285 C<br>Rəngə uyğun üzəri yumşaq dəri, elastik rezin, içərisində ip<br>Açılanda 180 dərəcə hamar olmalıdır<br>Dairəvi künclər<br>Üz qabığında relyefli basma loqo, daxili səhifələri xüsusi dizaynlı<br>Kağız: fil sümüyü rəngli mat (və ya ekvivalenti) | | | **ədəd** | **300** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 12 | **Prujin ilə bloknot** | Xüsusi dizayn Prujinlə cildlənən bloknot<br>Ölçü: A5 (50 səhifə)<br>İç vərəqləri 80qr.<br>Üz qabığı: 300-350qr, mat laminasiya<br>Üzərində çap loqo (və ya ekvivalenti) | | | **ədəd** | **700** | | |  |
| 13 | **VİP hədiyyə dəsti** | 1) Xüsusi Labardina PU örtüklü xətli dəftər. Tünd metal aksesuarlarla metal diyircəkli qələm. Silikon tutacaqlı ikiqat divarlı termos. Hamısı dizayner kağızından hazırlanmış xüsusi qara qutuda qablaşdırılıb.<br>2) PU termo dərili bloknot, üzərində metal toqqa, premium metal qələm, 8GB USB flash yaddaş və LED ekranlı temperatur göstəricisi olan | | | **ədəd** | **500** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | mini termo butulka. Dizayner kağız qutusunda təqdim olunur.<br>3) PU termo dərili bloknot, metal qələm və qatlanan premium çətir. EVA köpüklə qorunan dizayner kağız qutusunda təqdim olunur. (və ya ekvivalenti) | | | | | | | |
| 14 | **VİP qalstuk qutusu (qalstuk + sıxac + qutu)** | Sıxac: Xüsusi dizayn<br>Material: Metal<br>Ölçü: 80x30mm<br>Xüsusi dizayn ilə loqo və ya yazı<br>Qutu: rəngi qara, üzərində və içində basma relyefli loqo<br>Qalstuk: Xüsusi dizayn<br>Ölçü: 150x200mm<br>Material: ipək və ya poliestr<br>Rəng: təqdim olunan material seçilə bilər<br>Üzərinə naxış və ya yazı çapı (və ya ekvivalenti) | | | **ədəd** | **300** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 15 | **Alüminium yapışqan (adheziv) loqotip ilə stiker** | sublim metal,çap ve iki tərəfli skoçla yapşdırılır. (və ya ekvivalenti) | | | **ədəd** | **200** | | |  |
| 16 | **İdman çantası** | 600D polyester materialdan hazırlanmış idman çantası. 2 fermuarlı yan bölmə və qulaqlıq keçidi olan 1 fermuarlı ön cibə malikdir. Çıxarıla bilən və tənzimlənən çiyin kəməri daxildir. (və ya ekvivalenti) | | | **ədəd** | **250** | | |  |
| 17 | **Table calendar + phone holder + notes papers (EKO)** | Bambukdan hazırlanmış masa təqvimi, telefon saxlama funksiyası, 2 qələm tutacağı və 50 yapışqan kağız vərəqi. (və ya ekvivalenti) | | | **ədəd** | **300** | | |  |
| 18 | **Eko çanta** | Xüsusi dizayn və tikim<br>Material: pambıq<br>Rənglər: ya ağ, ya qara<br>Qulpun rəngi: ağda qara, qarada | | | **ədəd** | **500** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | ağ Üzərində kəsintisiz yazı dizaynı Kənarında üzərində loqo tikilmiş etiket (və ya ekvivalenti) | | | | | | | |
| 19 | **Portativ Spiker-kolonka** | Tezlik diapazonu 60-20000 Hz. Növ Portativ akustika.Bluetooth 5.4 Qidalanma Akkumulyator. İşləmə müddəti 12 saatadək. İnterfeys USB Type-C. Qorunma dərəcəsi IP67. Güc 30 Vt.Korpusun materialı.Plastik, parça .Çəki 597 q.(və ya ekvivalenti) | | | **ədəd** | **200** | | |   |
| 20 | **Çətir** | Əyilən 21 düymlük çətir, 3 hissə ilə, 190T RPET pongee parçası, qara rəngdə örtülmüş çərçivə və sümük, taxta tutacaqla. Əl ilə açılma və bağlanma. Eyni | | | **ədəd** | **300** | | |   |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | materialdan hazırlanmış çanta (və ya ekvivalenti) | | | | | | | |
| 21 | **T-shirt mayka** | Material: pambıq<br>Rəng: ağ və ya qara<br>Ön tərəfdə loqo və dörd sözdən ibarət yazı tikilişi<br>Ölçülər: 50 ədəd - M, 100 ədəd - L, 50 – XL (və ya ekvivalenti) | | | **ədəd** | **600** | | |  |
| 22 | **Kepka** | 5 panelli kepka<br>Material: 100% Pambıq<br>Yapışqan bağlanma (velcro closure)<br>Rəng: Ağ, göy, qara<br>Üz tərəfində çap loqo (və ya ekvivalenti) | | | **ədəd** | **600** | | |  |
| 23 | **Perexodnik adapter** | Avropadan (Schuko standartı) səyahətçilər üçün kompakt 3-pol birləşdirici, 12W USB Type-A portu. Dünyanın istənilən yerində laptoplar və saç quruducuları kimi güclü cihazları | | | **ədəd** | **300** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | qoşmaq üçün uyğundur. 3-pol, yerə qoşulmuş. Bütün beynəlxalq təhlükəsizlik tələblərinə və normativlərə cavab verir. (və ya ekvivalenti) | | | | | | | |
| 24 | **Səyahət dəsti** | Səyahət dəsti, velvət materialdan hazırlanmış şişmə yastıq, göz maskası və qulaq tıxacları daxil olmaqla. Hamısı velvət çantada qablaşdırılmışdır. (və ya ekvivalenti) | | | **ədəd** | **300** | | |  |
| 25 | **Pazzl oyun (EKO)** | Bambukdan hazırlanmış beyin tizer pazzl. Təkrar emal edilmiş kağız qutuda təqdim olunur. Bambuk təbii bir materialdır, buna görə hər bir əşyanın rəngi və ölçüsündə kiçik fərqlər ola bilər, bu da son bəzək nəticələrini təsir edə bilər. (və ya ekvivalenti) | | | **ədəd** | **300** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 26 | **Mürəkkəbsiz qələm (EKO)** | Uzun omurlu bambukdan hazırlanmış mürəkkəbsiz qələm, kağız örtüyü ilə. Bu qələmin metal alaşımdan hazırlanmış ucu var və yazarkən, kağızın səthini oksidləşdirir, amma heç bir iz buraxmır. Bu, ənənəvi qələmlərə davamlı bir alternativ olaraq mükəmməl bir seçimdir. Bambuk təbii bir materialdır, buna görə hər bir əşyanın rəngi və ölçüsündə kiçik fərqlər ola bilər, bu da son bəzək nəticələrini təsir edə bilər. 15000km yazı həcminə malikdir. Hər məhsulun individual, ölçülərinə uyğun karton qutusu, üzərində lazer | | | **ədəd** | **300** | | |  |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | oyma loqo (və ya ekvivalenti) | | | | | | | |
| 27 | **Folder Magnet Bloknot** | FOLDER PLUS 300D RPET polyester materialından hazırlanmış çoxfunksiyalı qovluq/notepad, təkrar emal edilmiş plastikdən hazırlanmışdır, plastik tullantıların yenidən istifadəsini təşviq edir və planetin davamlılığını dəstəkləyir. Maqnitli bağlama və daxilində RPET etiketi ilə. Üstündə 10W simsiz şarj cihazı inteqrasiya edilmişdir, cihazın şarj olunarkən istifadə edilməsinə imkan verən maqnitli bağlama və yapışqan halqa daxildir, Magsafe və Qi texnologiyası ilə uyğun olan bütün cihazlarla | | | **ədəd** | **300** | | |   |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | uyğundur. 8,000 mAh şarj tutumuna malik inteqrasiya edilmiş batareya, Type C giriş/çıxış portu və LED şarj vəziyyəti göstəricisi ilə, kabel daxil edilmişdir. İçərisində smartfon tutacağı və müxtəlif kart bölmələri, qələm tutacağı və 20 vərəqdən ibarət A4 notepad yerləşir. Tam boşalma qoruma sistemi, enerji bankının davamlılığını artırır. Qısa qapanmaların qarşısını almaq üçün bloklama sistemi. Hədəf cihazının tutumuna uyğun olaraq sabit şarj ötürülməsi sistemi. Simsiz 10W. Enerji bankı 8000 mAh. USB çıxışı. Micro USB | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | giriş. 100 vərəq notepad. (və ya ekvivalenti) | | | | | | | |
| | | | | | | | **Cəm:** | ____ | |
| | | | | | | | **ƏDV 18%:** | | |
| | | | | | | | **Yekun cəm:** | | |

**Qeyd:**

Keyfiyyətcə şərtlər toplusunda göstərilmiş mallardan daha aşağı keyfiyyətli mallar təklif edən təchizatçının təklifi satınalmadan kənarlaşdırılacaqdır.
Nəqliyyat, sığorta, vergi, gömrük, çatdırılma və s. xərclər Təchizatçı hesabına həyata keçiriləcəkdir.
Bütün mallar minimum qeyd olunan göstəricilərə malik olmalıdır.
Məhsullar yeni, istifadə edilməmiş və istehsal qüsurları olmadan təqdim edilməlidir.
Məhsullar çatdırılma zamanı bütün risklərdən müdafiə olunacaq şəkildə qablaşdırılmalı və daşınmalıdır.
İstifadə olunan materiallar möhkəm, uzunömürlü və ekoloji standartlara uyğun olmalıdır.
Rənglər solmamalı və asanlıqla silinməməlidir.
Bütün mallara 1 il zəmanət tələb olunur.

**Ödəniş şərtləri:** Müqavilə üzrə ödənişlər Mallar lazımi qaydada qəbul edildikdən sonra Satıcı tərəfindən təqdim edilmiş ödəniş sənədləri və qanunvericiliklə tələb edilən digər sənədlər əsasında (qaimələr, fakturalar, aktlar, digər sənədlər), 30 (otuz) bank günü ərzində Satıcının bank hesabına köçürmə yolu ilə həyata keçiriləcəkdir.